# ÖLKƏMİZDƏ QOYUNÇULUĞUN İNKİŞAFI



**Talıb Sadıqov,**
*ARKTN-nin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun*
*Abşeron Heyvandarlıq Təcrübə Stansiyasının böyük elmi işçisi*
*e-mail: sharmar56@mail.ru*

**UOT:** 63

**Xülasə.** *Məqalədə Azərbaycanda qoyunçuluğun inkişafından, Rusiyanın bəzi vilayətlərindən ölkəmizə zərif yunlu merinos qoyunlarının gətirilməsindən, kolxoz quruculuğu zamanı kəndlərdə kolxoz təsərrüfatlarında sürü massivlərinin yaradılması və bu sahədə geniş elmi-tədqiqat, seleksiya işlərinin aparılmasından bəhs edilir. Qoyunçuluğun inkişaf etdirilməsində əsas məqsəd kimi əhalinin qoyun ətinə, sənayenin yun xammalına, xəz-dəri məmulatlarına olan tələbatının ödənilməsi və kəndli-fermer təsərrüfatlarında gəlirlərin artırılması göstərilmişdir.*

***Açar sözlər:*** *qoyun cinsi, kəndli-fermer təsərrüfatı, ətlik-yunluq, xəz-dəri, Azərbaycan dağ merinosu, yaylaq və qışlaq.*
***Key words:*** *sheep breed, peasant farm, raised for meat and wool, fur-skin, Azerbaijan mountain merino, pasture and winter.*
***Ключевые слова:*** *порода овец, крестьянско-фермерское хозяйство, мясной-шерстяной, мех-кожа , Азербайджанский горный меринос, летнее и зимнее пастбища.*

Əhalinin qoyun ətinə olan tələbatını ödəmək məqsədi ilə qoyunçuluğun inkişaf etdirilməsi günün vacib məsələlərindən biridir. Qoyunçuluğu inkişaf etdirmək üçün onun cins tərkibinin yaxşılaşdırılması və möhkəm yem bazasının yaradılması vacibdir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli, 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə müəyyən edilən strateji hədəflərə nail olunmasında heyvandarlığın intensiv texnologiyalar əsasında inkişaf etdirilməsi, heyvan mənşəli məhsulların istehsalı və emalında "dəyər zənciri" prinsipinin tətbiq edilməsi, eləcə də müasir dünya təcrübəsinin respublikamızda tətbiqinin genişləndirilməsi yolu ilə iri heyvandarlıq komplekslərinin, ailə-kəndli-fermer təsərrüfatlarının yaradılması nəzərdə tutulmuşdur. Dünyada mövcud olan təcrübələrdən istifadə etməklə örüş və otlaqların məhsuldarlıqlarının qorunub saxlanılması və artırılması, bu sahələrdən istifadə etməklə heyvandarlıqda yarımintensiv saxlama, parsel formasında bölgü aparmaqla mədəni otlaq yaratma təcrübəsinin respublikamızda da təbliğ olunması məqsədi ilə "Azərbaycan Respublikasında 2019-2023-cü illərdə heyvandarlığın intensiv inkişaf etdirilməsinə və örüş-otlaq ərazilərinin səmərəli istifadə olunmasına dair Dövlət Proqramı" hazırlanmışdır.

Dövlət proqramının məqsədi yeni təsərrüfatçılıq modellərinin tətbiqi ilə cins tərkibinin yaxşılaşdırılması hesabına heyvandarlıqda genetik potensiala uyğun məhsuldarlığa və heyvandarlığın davamlı inkişafına nail olunması, ölkə əhalisinin heyvan mənşəli məhsullara tələbatının əsasən, yerli məhsullar hesabına ödənilməsi, ix-

rac imkanlarının yaranması, heyvandarlıq müəssisələrinin yemə olan təminatının yaxşılaşdırılması, örüş-otlaq sahələrinin münbitliyinin artırılması yolu ilə səmərəli istifadənin təmin edilməsi, emal sənayesinin inkişaf etdirilməsi və kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün heyvandarlığın inkişafının stimullaşdırılmasıdır.

Məlumdur ki, Azərbaycanda qoyunçuluq ta qədim dövrlərdən köçəri, yaylaq-qışlaq, örüş-otlaq şəraitində yetişdirilib. Aparılmış tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Azərbaycanda maldarlıq Mezolit və xüsusilə də Neolit dövründən geniş yayılmağa başlanmışdır.

Qoyunçuluq ölkəmizdə hələ qədim zamanlardan xalqımızın ən sevimli və gəlirli təsərrüfat sahəsi olmuşdur. Qədim zamanlardan köçəri xalqlar təbii seçmə və taylaşdırma nəticəsində qoyunların cins tərkibinin, məhsuldarlığının yaxşılaşdırılmasında və sayının artırılmasında xeyli işlər görmüşlər. Elə buna görə də respublikamızda bugünədək onlarla qoyun cinsi yetişdirilmişdir. Lakin həmin cinslərin az məhsuldar olanları ictimai təsərrüfatlardan tədricən çıxarılmış və yüksək məhsuldar qoyun cinsləri ilə əvəz edilmişdir.

Statistik məlumatlara görə, dünyanın bütün ölkələrində 600-ə yaxın qoyun cinsi vardır. Məhsuldarlığına görə qoyun cinsləri bir neçə yerə bölünür. Belə ki, qoyunlar yun, xəz-dəri, ət, süd və s. almaq üçün yetişdirilir. İki və üç növ məhsul – ət və yun, yaxud ət, süd və yun verən qoyun cinsləri də vardır. Sənaye şəhərlərinin ətraf bölgələrində tezyetişən ətlik-yunluq qoyunçuluğun inkişafı daha məqsədəuyğun hesab olunur. Belə ki, qoyunçuluğun bu istiqamətdə inkişaf etdirilməsi əhalinin qoyun ətinə, sənayenin yun xammalına olan tələbatının ödənilməsinə, kəndli-fermer təsərrüfatlarının isə gəlirlərinin artmasına imkan verir.

Ölkəmizdə aparılan ərzaq təhlükəsizliyinin aradan qaldırılmasında qoyunçuluğun xüsusi yeri vardır. Belə ki, qoyun çox əlverişli örüş-otlaq heyvanı olmaqla, qaramala nisbətən yemə az tələbkardır. Bundan əlavə, qoyun və keçilər digər heyvanların gedə bilmədiyi əkinə yararsız olan çöllərin, uçurumlu dağ yamaclarının və sıldırımlı qayalıqların otundan səmərəli istifadə edə bilirlər. Hətta qoyun ekstremal, əlverişsiz iqlim şəraitinə davamlı heyvan olub, uzun müddət ac və susuz da qala bilir.

Ölkəmizdə yüngül sənayenin, yəni zərif parça istehsalı üçün zərif və yarımzərif yunlu qoyunçuluğun, xalçaçılıq, keçəçilik (qəlif, yapıncı, keçə, valinka, yəhər üçün təkaltı və s.), eləcə də xalq tələbatı mallarının istehsalı üçün yarımqaba və qabayunlu qoyunçuluğun inkişaf etdirilməsi məqsədəuyğun hesab olunur. Hazırda qarşıda duran əsas məqsəd dünyanın bir çox ölkələrində olduğu kimi, ölkəmizdə də yüksək məhsuldar, tezyetişən ətlik, yunluq və südlük istiqamətli sənaye üsulu ilə qoyunçuluğun intensiv inkişaf etdirilməsidir. Qoyun örüş-otlaq heyvanı olduğu üçün az zəhmət tələb edir, qoyunçuluq məhsulları ucuz başa gəlir və maya dəyəri aşağı olur, təsərrüfat rentabelli işləyir.

Qoyunçuluq elə bir sahədir ki, gərək atınla, itinlə, ulağınla birlikdə daim gecə və gündüz qoyun sürüsünün yanında olasan. *Atalar yaxşı deyib: "Qoyununmu var, oyununmu? Qoyununu yaz otar, yaz otarmasan payız otar, payız otarmasan yüz otar, xeyri yoxdur".*

Azərbaycanda heyvandarlığın elmi əsaslarla yetişdirilməsində, heyvandarlıq elminin inkişafında, eləcə də Heyvandarlıq Elmi-Təqiqat İnstitutunun (HETİ) yaradılmasında professor İ.Kaluginin böyük əməyi olmuşdur. Belə ki, 1926-cı ildə Azərbaycan Xalq Torpaq Komissarlığının təklifi ilə elmi-tədqiqat işləri aparmaq üçün İ.Kaluginin rəhbərliyi ilə ekspedisiya qrupu yaradılmışdır. Gəncə şəhərinin 7 km-də Xanlar (indiki Göygöl) şəhərindən 3 km aralı ərazidə S.Ağamalıoğlu, D.Bünyadzadə, T.Hüseynov, İ.Kalugin, S.Smirnov, Loginov və başqalarının iştirakı ilə 1930-cu ildə heyvandarlıq elm ocağının əsası qoyulmuş və Heyvandarlıq Təcrübə Stansiyasının açılışı olmuşdur. Yeni yaradılmış stansiyanın işində Ə.Ələkbərov, A.Əliyev, V.Qarbelik, M.Hacıbababəyov, M.Sadıqov və başqaları iştirak etmiş, direktoru isə İ.Kalugin təyin edilmişdir.

1949-cu ildə Heyvandarlıq Təcrübə Stansiyasının bazasında Azərbaycan Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu yaradılmışdır. 1952-ci ildə isə Azərbaycan SSR Elmlər Akademiyasının Gəncə və Xankəndi Heyvandarlıq Təcrübə Stansiyaları Az.METİ-na birləşdirilmişdir. METİ-nin yaradılması, tarixi və onun formalaşdırılması

görkəmli alimlərdən – RKTEA-nın akademiki F.Məlikovun, RKTEA-nın müxbir üzvü A.Ə.Ağabəylinin, akademik M.Sadıqovun, professorlardan Z.Verdiyevin, Ə.Əliyevin, R.Səttarzadənin, C.Axundovun və başqalarının adları ilə bağlıdır.

Keçmiş SSRİ-də yüngül sənayenin zərif yuna olan ehtiyacını ödəməkdən ötrü respublikamızda da zərifyunlu qoyun cinslərinin yaradılması məsələsi qarşıya qoyulmuş və Azərbaycan dağ merinosu qoyun cinsinin yaradılması məqsədi ilə elmi-tədqiqat işlərinə başlanılmışdır. Belə ki, 1840-cı illərdə Rusiyanın Tavrida, Xerson və Yekaterinoslav vilayətlərindən Azərbaycana köçürülmüş ruslar tərəfindən ölkəmizə qoyun cinsləri gətirilmişdir. Ölkəmizə gətirilmiş zərifyunlu merinos qoyunları kolxoz quruculuğu zamanı 1932-ci ildə Gədəbəy rayonunun Slavyanka və Misginli kəndlərində kolxoz təsərrüfatlarında cəmləşdirilərək sürü massivləri yaradılmış və həmin vaxtdan etibarən elmi-tədqiqat, seleksiya və damazlıq işlərinin aparılmasına başlanılmışdır. Elmi-tədqiqat, seleksiya və damazlıq işlərinin aparılması ilə əlaqədar 1935-ci ildə Gədəbəy rayonunun Slavyanka kəndində Dövlət Damazlıq Ocağı yaradılmışdır.

Qoyunçuluq təsərrüfatları əhalinin yuna, ətə, südə, süd məhsullarına (pendir, qatıq və s.), eləcə də xəz-dəri məmulatlarına olan tələbatının ödənilməsində müəyyən rol oynayır. Qoyunun yunundan, dərisindən, buynuzundan və sümüyündən də xalq təsərrüfatının müxtəlif sahələrində geniş istifadə olunur.

Respublikamızda qoyunçuluq hələ qədim zamanlardan köçəri olduğu kimi, bu gün də qışda qışlaqlara, yayda isə yaylaqlara aparılır. Odur ki, respublikamızın Ceyrançöl, Acınohur-Sarıca, Mil-Qarabağ, Haramı, Muğan-Şirvan, Muğan-Salyan, Qobustan, Gəncə-Bozqır və s. massivləri qış otlaqları kimi istifadə edilir. Yayda isə qoyun sürüləri buradan Böyük və Kiçik Qafqaz dağlarının yuxarı yamaclarındakı otlaqlara köçürülür.

Ölkəmizdə qiymətli yerli aborigen qoyun cinslərinin inkişaf etdirilməsi çox perspektivlidir. Yerli qabayunlu qoyunların əla ətlik keyfiyyətini və tezyetişkənliyini nəzərə alaraq Ağcabədi, İmişli və Beyləqan rayonlarının özəl qoyunçuluq fermalarında yarımqaba yunlu, ətlik, yunluq və südlük istiqamətli krosbred tipli tezyetişən yüksək məhsuldarlı, Mil-Qarabağ, Abşeron bölgəsinin Qobu və Güzdək qoyunçuluq fermalarında yarımqaba yunlu tezyetişən ətlik, yunluq və südlük istiqamətli Abşeron qoyun cinsləri yaradılmışdır.

Son illər ərzində ölkəmizdə qoyunçuluğun daha da inkişaf etdirilməsi üçün xeyli təsirli tədbirlər hazırlanıb həyata keçirilmiş və bu sahədə çox işlər görülmüşdür. Qoyunçuluq məhsullarının artırılmasını təmin edən digər əsas bir şərt çoxillik örüş-otlaq sahələri yaratmaqla yem istehsalının artırılmasıdır.

Əkinçilik və yem istehsalının intensivləşdirilməsi ilə əlaqədar olaraq az məhsuldar təbii otlaqlar yüksək məhsul verən mədəni otlaqlara, qoyunların isə cins tərkibi yaxşılaşdırılaraq yüksək məhsuldarlı tezyetişən ətlik, yunluq və südlük istiqamətli qoyunçuluğa çevrilməlidir. Məlumdur ki, qoyun əti və motal pendiri əhalinin ən çox sevdiyi heyvandarlıq məhsullarından biridir. Ona görə də əhalinin qoyunçuluq məhsullarına olan və ildən-ilə artan tələbatını ödəmək məqsədi ilə sənaye üsulu ilə qoyunçuluğun intensiv inkişaf etdirilməsi, qoyunların saxlanılması, bəslənilməsi, yemlənilməsi və yetişdirilməsi təlimata uyğun, yəni zoobaytar qaydalarına əməl olunmaqla dövlət səviyyəsində həyata keçirilməlidir.

**Nəticə.** Respublikamızda kənd təsərrüfatı işçiləri qarşısında kənd təsərrüfatının gələcəkdə inkişaf etdirilməsini təmin etmək, eyni zamanda alınan məhsulun keyfiyyətini daha da yaxşılaşdırmaq kimi mühüm vəzifələr qoyulmuşdur. Heyvandarlıq sahəsində, xüsusən qoyunçuluqda istehsal olunan yun, qoyun əti, xəz-dəri və s. məhsulların istehsalının artırılması və həyata keçirilməsi işi qarşıda mühüm bir məsələ kimi durur.

## ƏDƏBİYYAT


1. Sadıqov M.N. Qoyunçuluq (dərslik). Bakı, 1965.
2. Дамиров М.А. Карабахский-уникальный генотип Карабахской породы овец. Тезисы научных сообщений конференции ВНОК (16-18 мая 1991 г.), Ставрополь, 1991, ст. 83-85.
3. Nəcəfov N.A. Qala-Abşeron cinsli qoyunların bonitrəsinə zootexniki tələbata dair təlimat. Bakı, 1994.
4. Sadıqov T.H. Mil-Qarabağ bölgəsində Mil-

Qarabağ qoyun cinsinin yaradılması haqqında. “Azərbaycan aqrar elmi” jurnalı, 3/2012, səh. 122-124.

5. Abdullayev Q.Q. Bozax cinsli qoyunların bonitrəsinə zootexniki tələbata dair təlimat. Bakı, 1994.

6. Sadıqov T.H. Mil-Qarabağ qoyun cinsi. “Azərbaycan aqrar elmi” jurnalı, 2/2014, səh. 155-158.

7. Sadıqov T.H. Mil-Qarabağ bölgəsində Mil-Qarabağ cinsli qoyunların damazlıq kimi satılması, balavermə və süd məhsuldarlığı. “Azərbaycan aqrar elmi” jurnalı, 1/2020, səh. 93-95.

8. “Heyvandarlığın müasir problemləri və innovativ konsepsiyalar” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Azərbaycan, GöyGöl, dekabr 2021, səh. 201-204.

T.Sadigov

## Development of sheep breeding in our country

**Abstract**

The article discusses the development of sheep breeding in Azerbaijan, the import of fine wool merino sheep from some regions of Russia to our country, the creation of herd massifs in collective farms in the villages during organization of collective farms, and extensive scientific research and selection work in this area. The main purpose of the development of sheep-breeding is to meet the demand of the population for mutton and of industry for raw materials, fur and leather products, and to increase incomes in peasant farms.

Т.Садыгов

## Развитие овцеводства в нашей стране

**Аннотация**

В статье рассматривается развитие овцеводства в Азербайджане, завоз тонкорунных мериносовых овец из некоторых регионов России, создание стад на колхозах в селах при строительстве колхозов и обширная научно-селекционная работа в этой области. Основной целью в развитии овцеводства является обеспечение потребности населения в баранине, промышленном сырье для шерсти, меховых и коженных изделий, увеличение доходов крестьянских хозяйств.